# HƏSƏNOV ELDAR İSPƏNDİYAR OĞLU



Həsənov Eldar 26 dekabr 1965-ci ildə Cəlilabad rayonunun Lallar kəndində anadan olmuşdur. 1983-cü ildə Xanəgah kənd orta məktəbini bitirmişdir. 1984-cü ildə ordu sıralarına çağırılmışdır. 1986-cı ildə hərbi xidmətini başa vurub doğma kəndinə qayıtmış və sürücü kimi çalışmağa başlamışdır. 1990-cı ildə E.Həsənov xüsusi təyinatlı polis dəstəsinə üzv yazılmışdır. 1991-ci ildə Polis Akademiyasına daxil olmuşdur. 1994-cü ilin yanvar ayında E.Həsənovun ikinci cəbhə həyatı başlamışdır. Füzuli bölgəsində ermənilərə qan udduran polis starşinası düşmənin xeyli canlı qüvvəsini, texnikasını məhv etmişdi. Onun başına ermənilər tərəfindən 50 min ABŞ dolları qoyulmuşdur. Eldar döyüşlərdə əsl igidlik nümayiş etdirmişdir. O, 1994-cü il mayın 12-də Horadiz qəsəbəsi uğrunda gedən ağır döyüşlərin birində qəhrəmancasına həlak olmuşdur. Cəlilabad rayonunun Lallar kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə Həsənov Eldar İspəndiyar oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Cəlilabad rayon polis şöbəsinin həyətində büstü qoyulmuşdur.